# Azərbaycan Ordusundan Ermənistana növbəti “dərs”



***Ermənistan Azərbaycana qarşı təxribatçı əməllərindən əl çəkmir. Amma nə yaxşı ki, son illərdə kifayət qədər güc toplamış və bu gün özünə, qələbə əzminə inanan şanlı Azərbaycan Ordusu işğalçı ölkənin bütün təxribatlarına lazımınca cavab verir, ona layiq olduğu yeri göstərir.***

Məlum olduğu kimi, avqustun 23-də gecə saat 05.45 radələrində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu cəbhənin Goranboy rayonu istiqamətində yenidən təxribat törətməyə cəhd göstərib. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata görə, cəbhənin bu istiqamətində yerləşən Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən itki verərək geri çəkilməyə məcbur edilib.

Hətta şücaətli əsgərlərimiz bununla kifayətlənməyərək, döyüş zamanı erməni diversiya qrupunun komandiri, ilkin dindirməyə görə, baş leytenant Qurgen Alberyanı əsir götürüblər. Bununla bağlı Müdafiə Nazirliyinin məlumatında deyilir: “Bir daha bildiririk ki, cəbhədə vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət, bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”.

Ancaq özünün işğalçılıq siyasəti ilə dünyada nüfuzunu tamamilə itirmiş Ermənistan tərəfi hadisənin mahiyyətini başqa cür təqdim etməyə çalışır. Cəbhənin Goranboy istiqamətində Azərbaycanın ordu bölmələri tərəfindən əsir götürülmüş erməni zabiti haqqında Ermənistan Müdafiə Nazirliyinin məlumatı, yumşaq desək, gülüş doğurur. Müdafiə Nazirliyi mətbuat xidmətinin rəhbəri Şuşan Stepanyan bildirib ki, zabit Qurgen Alberyan pis hava şəraitində azıb və itib: “Onun axtarışı aparılır”.

Amma nə yaxşı ki, hələ oktyabr-noyabr deyil, avqust ayıdır və dağların dumana bürünməsinə xeyli vaxt var. Ermənistanın Müdafiə Nazirliyi Azərbaycana qarşı növbəti diversiya əməliyyatı keçirdiyini gizlətməyə çalışsa da, Azərbaycan Müdafiə Nazirliyi Goranboy rayonu istiqamətində baş vermiş hadisəni açıq təxribat kimi qiymətləndirib. Ancaq düşmənin son vaxtlar üzləşdiyi məğlubiyyətlər və verdiyi itkilərlə əlaqədar hər dəqiqə təxribat törətməyə hazır olduğunu bilən Azərbaycan Ordusunun bölmələri bu dəfə də sayıqlığını itirməyərək, mənfur düşmənə öz məqsədlərini həyata keçirməyə imkan verməyib. Görülmüş təcili və qəti tədbirlər nəticəsində düşmən itki verərək geri çəkilməyə məcbur edilib.

Ermənistan ordusunun Tovuz təxribatından sonra Goranboy istiqamətində diversiya-kəşfiyyat əməliyyatının məğlubiyyətlə nəticələnməsi bir daha sübut edir ki, Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirməyə, torpaqlarımızı işğaldan azad etməyə hər dəqiqə hazırdır. Bunu Azərbaycan xalqı 2016-cı ildə dörd günlük Aprel döyüşlərində görmüşdü. Sonradan ordumuz gücünü 2018-ci ilin mayında Naxçıvan istiqamətində Günnüt əməliyyatı zamanı bir daha sınaqdan keçirdi və hər iki şanlı əməliyyatdan böyük uğur və zəfərlə çıxdı.

Görünür, yaddaşsız düşmən bu dərsləri unutmuşdur. 2020-ci ilin iyulunda Tovuz istiqamətində yeni ərazilərimizi işğal etmək niyyəti ilə hücuma keçən Ermənistan ordusu ön cəbhədəki hərbi qüvvələrimizin inadlı müqaviməti və sərt zərbələri ilə qarşılaşdı və burnu əzilərək geri oturduldu. Tovuz döyüşləri Ermənistana böyük canlı qüvvə və hərbi texnika itkisi bahasına başa gəldi.

Bu təxribatla əlaqədar Təhlükəsizlik Şurasının iclasını keçirən Prezident İlham Əliyev Azərbaycan əsgərinin qətiyyətinə yüksək qiymət verərək, bildirmişdi ki, Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alınmış, düşmənə adekvat cavab verilmişdir. Hərbçilərimizin qisası alınmışdır. Ermənistan tərəfinin bütün cəhdləri iflasa uğradı, Azərbaycan öz dövlət sərhədini qorudu və Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilmədilər.

Ermənistanın yeni Azərbaycan ərazilərini ələ keçirmək məqsədilə hücumları beynəlxalq aləm, eləcə də dünyanın əksər ölkələri tərəfindən ittiham edildi. Azərbaycanın mövqeyi isə birmənalı şəkildə dəstəkləndi. Ölkəmiz buna Prezident, Ali Baş Komandan İlham Əliyevin illərdən bəri apardığı uğurlu xarici siyasət, Azərbaycanın milli maraqlarını dünyada qətiyyətlə müdafiə etməsi sayəsində nail olub. Dövlət başçısı, demək olar ki, bütün beynəlxalq təşkilatlarda faşizm ideologiyasının daşıyıcısı olan Ermənistanı ifşa edir. Ona görə də Azərbaycanın ədalətli mövqeyi get-gedə daha çox ölkə tərəfindən dəstəklənir.

Görünür, erməni tərəfi Azərbaycan Ordusunun nəyə qadir olduğunu bir daha görmək istəyib. Və təbii ki, ordumuzun sayıqlığı düşmənin niyyətini gözündə qoyub. Ermənistan, zənnimizcə, yersiz təxribatlardan, diversiya əməllərindən əl çəkməlidir. Biryolluq bilməlidir ki, Azərbaycan münaqişəni sülh və danışıqlar yolu ilə həll etmək istəyirsə, bu, heç də onun gücsüzlüyü demək deyil. Güc tətbiqi lazım olanda da Azərbaycan öz sözünü deyə bilir. Odur ki, Ermənistan vaxt itirmədən danışıqlar masası arxasına keçməli və torpaqlarımızdan rədd olub getməlidir. Əks halda cəbhə xəttində çox alberyanlar bizə əsir düşəcəklər.

**Paşa ƏMİRCANOV,**
**“Xalq qəzeti”**